

*Ələmdar Məmmədov,*
*Təqaüddə olan*
*ədliyyə polkovniki*

# Ədaləti həyat kredosuna çevirən adam

(əvvəli ötən saylarımızda)

**Bəziləri deyirlər ki, İlyas müəllim kinli adamdır. Bəli, kinli və qəddar adam idi! Ölüm, zorlama, narkobiznes işlərini batıranlara, mafiozlara və onlara satılan prokurorluq işçilərinə, öz mənafeyini dövlət və xalq mənafeyindən üstün tutanlara qarşı kinli və qəddar, dönməz, çəkinməz və qətiyyətli prokuror, rəhbər idi. Amma şəxsi hisslərinin heç vaxt əsiri olmayıb.**

İlk tanışlığımızı xatırlatmaq istərdim. 1980-ci ildə Masallıda prokurorun böyük köməkçisi vəzifəsində işləyirdim. Prokuror məzuniyyətdə olduğu üçün onu əvəz edir və otağında əyləşirdim. Bir gün şəhər telefonu ilə zəng olundu.

"Salam, mən kimlə danışıram?". Dedim:

**- "Sizə kim lazımdır?" Həmin şəxs təkrarən soruşdu:**

**-"Prokurorluqdur?", dedim:**

**-"Bəli".**

**-"Familiyanız nədir?"**

Mən yenə dedim ki, "Sizə kim lazımdır və kimsiniz?"

Bu sual-cavab bir neçə dəfə təkrar olunduqdan sonra, nəhayət zəng edən şəxs dedi:

**- "Danışan Respublika Prokurorunun müavini İlyas İsmayılovdur!"**

Çox pərt oldum. Özümü təqdim etdim. Dedi:

**- Məmmədov, görünür vətəndaşlarla da belə rəftar edirsiniz ki, Masallıdan 25-30 nəfər şəxs Mərkəzi Komitənin qarşısında toplaşıb.**

Sonra zəng etdiyi mövzunu deyib, dəstəyi asdı.

Həmin vaxt müstəntiqlərdən birinin iş yeri dəyişdirilmiş, digər müstəntiq istintaq qrupuna cəlb olunmuşdu. Prokurorluqda mən və prokuror köməkçisi Zəhra xanım Abdullayeva fəaliyyət göstərirdi. Raykomun büro iclasına gedə bilməmişdim. Birinci katib məni çağıraraq, büro iclasına gəlməməyimin səbəbini soruşduqda bildirdim ki, "İcraatımda çoxlu cinayət işləri var, prokuror vəzifəsini icra edirəm. Bir köməkçi var, o da məzuniyyətə gedir". Birinci katib dəstəyi götürüb, Respublika Prokuroru Abbas Zamanova zəng etdi. Vəziyyəti bildirdikdən sonra dedi ki, "Mən əvvəllər də Sizə demişdim ki, Zəhra Abdullayevanın bu rayonda işləməsi düzgün deyil. Zorla məzuniyyətə getmək istəyir". (Sonradan öyrəndim ki, Birinci katibin Z.Abdullayevanın yerinə öz namizədi var imiş). Mən çox pərt olmuşdum, iş otağıma təzəcə qayıtmışdım ki, İlyas müəllim zəng etdi və Zəhra Abdullayevanı telefona çağırtdırdı. (Zəhra Abdullayeva İlyas müəllimin yerlisi idi. Uzun müddət Tovuz rayon prokurorluğunda dəftərxana müdiri işləmişdi) İlyas müəllim Zəhra xanımı telefonla məzəmmət edirdi. Zəhra xanım isə "Məzuniyyət əmrim gəlsə də, mən getmək barədə təkid etməmişəm" - deyirdi. Mən vicdan əzabı çəkirdim. Bir bəhanə ilə Respublika Prokurorluğuna getdim. İlyas müəllimlə görüşdüm. Məni soyuq və rəsmi qarşıladı. Katiblə olan söhbətimi olduğu kimi İlyas müəllimə çatdırdım və söhbətin axırında bildirdim ki, "İş yoldaşımı satmaram və əgər bir qəbahəti olsaydı, birinci katibə yox, prokurorluğun rəhbərliyinə deyərdim". İlyas müəllim gülümsədi. Ayağa durub əl uzatdı. "Olur belə işlər", - dedi.

Sonradan o, Respublika Prokuroru təyin olunandan bir ay sonra, ilk əmri ilə məni və Sərdar Əliyevi rayon prokuroru vəzifəsinə təyin etdi.

İlyas müəllimlə ikinci görüşüm də yadda qalan oldu. 1981-ci ildə Masallı rayon prokurorunun böyük köməkçisi vəzifəsində işləyərkən, icraatımda CM-nin 88-1 maddəsi ilə istintaq olunan cinayət işini Respublika prokurorluğu rəhbərliyinə məruzə etməli idim. İstintaqa prokuror nəzarətini həyata keçirən Respublika Prokurorunun müavini Zakir Zeynalov məzuniyyətdə olduğundan,onun səlahiyyətləri İlyas müəllimə tapşırılmışdı. Düzü bir qədər yüngüllük hiss etdim. Zakir müəllim prokurorluqda - müstəntiq, şöbə prokuroru, rayon prokuroru, şöbə rəisi, bir sözlə, prokurorluğun bütün sahələrində işləmiş adam idi. İlyas müəllimin isə praktiki iş təcrübəsi yox idi. İnstitutu qurtardıqdan sonra elmi işlə məşğul olmuş, iki il Respublika Prokurorunun köməkçisi vəzifəsində işləmiş, Mərkəzi Komitə aparatında təlimatçı və hazırda da Respublika Prokurorunun müavini vəzifəsində işləyirdi. İlyas müəllimin qəbuluna gəlib, iki cildlik cinayət işini məruzə etdim. İlyas müəllim məruzəni diqqətlə dinlədi.

Məruzə qurtardıqdan sonra həmin vaxta qədər eşitmədiyim sual-cavab başladı. Mənimsəmənin kanalını müəyyən etmək üçün nə kimi işlər görmüsünüz? Qulluq mövqeyindən sui-istifadə etmək yolu ilə mənimsəməni, tamah məqsədilə edilmiş vəzifədən sui-istifadəni ayırmısınızmı? Mənimsəmədə iştirak edən şəxslər hansı mərhələdə əlbir olublar. Məhkəmə mühasibatlıq və məhkəmə-əmtəəşünaslıq ekspertizalarını nə üçün təyin etməmisiz? (Mən mütəxəssis rəyləri ilə kifayətlənmişdim). Bir sözlə, "praktiki işdə bir gün də işləməyən" bu adam 6 il yoxlama və istintaq təcrübəsi olan, öz üzərində daim işləyən, yeniliyə can atan və bir az da özündən razı olan praktiki işçini şahmat dili ilə desək, mat etdi.

Mən İlyas müəllimin bütün göstərişlərinə əməl etdim. Mağaza müdiri CM-nin 86-cı maddəsinin 3-cü hissəsi, iki satıcı 86-cı maddənin 2-ci hissəsi ilə cəmi 6 nəfəri müqəssir qismində cəlb edib məhkəməyə verdim.

Özüm sonralar 20 ildən artıq bu və ya başqa formada istintaqa nəzarəti həyata keçirərkən İlyas müəllimin üsullarından istifadə edirdim. Tabeliyimdə olan işçilərə "plenum qərarlarının" dili ilə danışmağı məsləhət bilirdim.

Ümumiyyətlə, İlyas müəllim praktiki işdə də elmi yanaşmanın tərəfdarı idi. Xatirimdədir bir cinayət işinin istintaqı ilə əlaqədar Masallı rayon prokuroru Əzizağa Həsənovla birlikdə məni qəbul etmişdi. İlyas müəllim söhbəti Əzizağaya yüngülvari iradla başladı:



**- O qadına həm ağır cəza vermisiniz, həm də əməlini düzgün tövsif etməmisiniz. Əməlin düzgün tövsif edilməməsi və cəzanın ağırlığından protest vermişəm. Biz hər ikimiz təəccüblə İlyas müəllimə baxdıq.**

Həmin cinayət işinin qısa məzmunu:

Masallının kəndlərindən birində yaşayan Nənəxanım adlı qadın cindarlıq edir, müxtəlif üsullarla camaatı aldadaraq külli miqdarda pul əldə etmişdi. Qadın haqqında CM-nin 147-ci maddəsinin 3-cü hissəsi ilə (Dələduzluq) cinayət işi başlanmış, ona həmin maddə ilə ittiham elan olunmaqla iş məhkəməyə göndərilmişdi. İşin məhkəmə araşdırmasında dövlət ittihamını Əzizağa Həsənov özü müdafiə etmişdi. Məhkəmənin gedişi televiziyanın "İnsan və qanun"verilişi ilə bütün respublikaya yayınlanmış, hətta tamaşaçıların xahişi ilə təkrar göstərilmişdi. Nənəxanım 8 il müddətinə azadlıqdan məhrum edilmə cəzasına məhkum edilmişdi. İlyas müəllim bildirdi ki, keyfiyyətli iş aparmısınız. Məhkəmədəki çıxışın da yaxşı idi, lakin qadının əməli CM-nin 147-ci maddəsi ilə deyil, 142-1 maddəsi ilə (dini xurafatdan tamah məqsədi ilə istifadə etmə) tövsif edilməlidir. Xüsusi norma həmişə ümumi normanı üstələyir. Ona görə də protest vermişəm. Bir neçə aydan sonra Ali Məhkəmə protestə baxaraq təmin etdi və qadın azadlığa çıxdı.

Həmin dövrdə Quba və Qaradağ rayonlarında böyük ictimai təhlükə törətməyən əmələ görə məhkəmələr təqsirləndirilən şəxslərə həbslə əlaqədar cəza verməşdi. İlyas müəllimin təşəbbüsü ilə cəzanın ağırlığından Azərbaycan SSR Ali Məhkəməsinə verilən protestlər təmin edilməmişdi. Belə olduqda İlyas müəllim SSRİ Baş Prokurorluğuna təqdimatla müraciət edir. SSRİ Ali Məhkəməsi Baş Prokurorluq tərəfindən cəzanın ağırlığından verilmiş protestləri təmin edir və hər iki müttəhim azadlığa qovuşur.

İlyas müəllim bütün ciddiyyəti ilə bərabər qanunlara və qaydalara əməl etmək nümunəsi göstərirdi. Bir misal çəkəcəm. Hər il yanımda stajyor olurdu. Stajyorluq müddəti qurtardıqdan sonra prokuror xasiyyətnamə yazır və hansı işə yararlı olduğunu göstərirdi. Mən stajyorları bütün sahələrdə çalışdırır və xasiyyətnamə yazarkən prokuror köməkçisi vəzifəsinə tövsiyə edirdim. (Mircavan Kazımov, Fəxrəddin Qəhrəmanov, Şakir Səmədov və s.)

1989-cu ildə Əhməd Abdullayevin stajyorluq müddəti başa çatdı. Onu da prokuror köməkçisi vəzifəsinə tövsiyə etdim. Kadrlar İdarəsinin prokuroru telefonla zəng edərək bildirdi ki, Əhməd Abdullayevi müstəntiq vəsifəsinə təyin etmək istəyirik. Mən etirazımı bildirdim. Səhərisi günü bu məsələ ilə əlaqədar Kadrlar İdarəsinin rəisi zəng etdi. Mən yenə etirazımı bildirdim. Axşamüstü Respublika Prokurorunun müavini Mirağa Cəfərquliyev mənə telefon açdı və dedi ki, biz İlyas müəllimlə qərara gəlmişik ki, Əhməd Abdullayevi müstəntiq vəzifəsinə təyin edək. Sən nə üçün etiraz edirsən? Dedim:

**- Mirağa müəllim, mən onu prokuror köməkçisi kimi yetişdirmişəm. Onun müstəntiq təyin olunmasını məsləhət bilmirəm. Mirağa müəllim bir az əsəbi formada:**

-Hamımız ağızdolusu Qarabağ-Qarabağ deyirik. Biz Əhməd Abdullayevi Şuşa rayon prokurorluğuna müstəntiq təyin etmək istəyirik. Yalnız bundan sonra razılığımı bildirdim və Əhməd Abdullayev həmin gün Şuşa rayon prokurorluğunun müstəntiqi vəzifəsinə təyin edildi. Bu misalı ona görə çəkirəm ki, təyinat məsələsi Respublika Prokurorunun müstəsna səlahiyyətinə aid olsa da, İlyas müəllim qəbul edilmiş qaydalardan kənara çıxmırdı.

İlyas müəllim təkcə Respublika Prokuroru deyil, həm də geniş miqyasda dövlət xadimi idi. Bir misal gətirəcəm. Prokurorluğun binasını təmir etmək üçün vəsait ayrılması barədə ona müraciət etdim. Mənə dedi ki, "Cəlilabad Prokurorluğunun binası pis deyil. Sizin rayonda onsuz da çoxlu tikinti işləri aparılır. Mən Prokurorluğa ayrılan vəsaiti tikintisi az olan rayonlara yönəldirəm".

Yardımlı rayon prokurorluğunun binası yox idi. Doğrudan da həmin vaxt Yardımlıda gözəl prokurorluq binası inşa edildi.

Ümumiyyətlə, İlyas müəllim Respublikada baş verən hadisələrə, ictimai-siyasi vəziyyətə dərindən nüfuz edirdi.

6 dekabr 1989-cu ildə Cəlilabad rayon partiya komitəsinin 1-ci katibi Ələsgər Qocamanov və milis rəisi Mətləb Rzayev mitinqçilərin tələbi ilə istefa verdilər. 13 sentyabr 1989-cu ildən 3 ay ərzində davam edən aramsız mitinq və qarşıdurmalardan təngə gəlib, mən də istefa verdim və İmişliyə, evimizə gəldim. Axşam saat 10 radələrində məni telefona çağırdılar. Respublika Prokuroru İlyas İsmayılov idi. Ona məlumat vermədən qərar qəbul edib, postumu tərk etməyə görə məzəmmət edəcəyini düşündüyüm halda, İlyas müəllim qayğılı səslə baş vermiş hadisəni soruşdu. Mən hadisəni müfəssəl danışıb, öz missiyamı başa vurduğumu və artıq işləmək istəmədiyimi bildirdim. İlyas müəllim dedi: - Cəlilabaddan MK-ya xeyli adam gəlib sənin qayıtmağını istəyirlər. Sabah günorta mənim yanımda olarsan.

**Səhərisi günü saat 16 radələrində İlyas müəllimin qəbulunda oldum. İçəri girən kimi durub mehribanlıqla əl görüşdü və məni pəncərə ağzına gətirdi. Aşağıda 30-40 nəfər əllərində plakat, İlyas müəllimin istefasını istəyirdi. O, sakit tərzdə əlini MK binasına tuşlayaraq,-oradan göndəriblər, dedi. Sonra aşağı düşüb mitinqçilərin qarşısına çıxdı. İlk sözü bu oldu ki, o plakatın birində yazmısınız ki, "Qolçomaq oğlu İsmayılov", bildirirəm ki, atam milis işçisi olub və mən körpə olarkən cinayətkarlarla atışmada həlak olub. Mitinqçilər həmin plakatı dərhal yığışdırdılar. Sonra İlyas müəllim aksiyaçıları iclas zalına dəvət edib, iki saata yaxın onlarla söhbət etdi. Aksiyaçılar razı halda dağılışdılar. İlyas müəllim bu hərəkəti ilə xalqla dialoqa girməyin nümunəsini göstərirdi. O, yenə məni yanına dəvət edərək bildirdi ki, sabah Mirağa Cəfərquliyev, DİN-nin müavini Nurəddin Yusifovla birlikdə Cəlilabada gedəcək. Sən də iş yerində ol. Mən baş üstə deyib, səhərisi günü Cəlilabada qayıtdım.**

(ardı gələn sayımızda)